№2

# Məktəblər necə mühafizə olunur?

***Bakının 132-134 saylı təhsil kompleksində, artıq Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarından ibarət 24 saatlıq mühafizə xidməti fəaliyyət göstərir. Məktəbin müraciəti əsasında təşkil olunan xidmət şagirdlərin və müəllimlərin təhlükəsizliyini təmin etməklə yanaşı, məktəb ərazisinin qorunmasını da həyata keçirir. Lakin sual yaranır: Azərbaycanda bütün məktəblər dövlət büdcəsi hesabına maliyyələşir.***

## Sosial

Bəs niyə hər bir məktəbdə polis xidməti 24 saatlıq fəaliyyət göstərmir? Ümumiyyətlə, dövlət ümumtəhsil məktəblərində mühafizənin təşkili ilə bağlı vahid normativ sənəd və ya standart mövcuddurmu? Məktəblərdə mühafizə xidmətinin hansı hissəsi məktəbin daxili imkanları, hansı hissəsi isə dövlət xətti ilə təmin olunur?

Hansı meyarlara əsasən bəzi məktəblərdə 24 saatlıq polis mühafizəsi təşkil edilir, digərlərində isə bu mühafizə nəzərdə tutulmur?

■ **Məsələni qəzetimizə şərh edən təhsil eksperti Elşən Qafarov bildirib ki, dövlət mülkiyyətində olan təhsil müəssisələrinin mühafizəsini dövlət, özəl məktəblərin mühafizəsini isə bu qurumların təsisçiləri təşkil edirlər:** "Ümumi təhsil müəssisələrində mühafizə xidmətinin təşkili qaydaları mövcuddur. 19 iyun 2020-ci ildə Nazirlər Kabineti tərəfindən "Ümumi təhsil müəssisəsində mühafizə xidmətinin təşkili Qaydası" təsdiqlənib. Sənəd "Ümumi təhsil haqqında" qanunun 12.16-cı maddəsinə əsaslanır və məktəblərdə mühafizə işinin hüquqi çərçivəsini müəyyən edir. Qaydanın əsas məqsədi təhsilalanların, eləcə də pedaqoji və texniki heyətin təhlükəsizliyini qorumaq, mümkün hüquqazidd halların qarşısını vaxtında almaqdır. Qaydalara görə, xüsusi təyinatlı təhsil müəssisələri istisna olmaqla, mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq bütün ümumi təhsil müəssisələrinə aiddir. Dövlət, özəl və bələdiyyə məktəbləri təhlükəsizlik tədbirlərinin görülməsinə cavabdehdir. Dövlət ümumi təhsil müəssisələrində mühafizə xidməti Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsi tərəfindən, müqavilə əsasında və əsasən "həyəcan" siqnalizasiya sistemi üzərindən həyata keçirilir. Bu sistem təhlükə yarandıqda polis naryadının operativ şəkildə hadisə yerinə cəlb olunmasına imkan verir. "Həyəcan" siqnalizasiya avadanlıqları məktəblərdə gizli şəkildə quraşdırılır, səssiz işləyir və kənar şəxslərin diqqətini çəkmir. Sistem daimi enerji mənbəyi ilə təmin olunur ki, fövqəladə hallarda fasilə yaranmasın. Qaydalara görə, məktəb rəhbərliyi siqnalizasiya sistemindən istifadə üçün məsul şəxslər təyin edir. Bu şəxslər yalnız real təhlükə zamanı sistemi işə salmalı, onun qorunmasına və məxfi saxlanılmasına nəzarət etməlidirlər. Sistemin əsassız işə salınması isə məsuliyyət yaradır. Amma təəssüflər olsun ki, bu qərarın tələbləri məktəblərdə kobud şəkildə pozuldu. Sistem qurulsa da, "Həyəcan" siqnalizasiya avadanlıqlarının məktəblərdə gizliliyi təmin olunmadı. Hətta şagirdlər belə həmin avadanlıqlarını yerini öyrəndilər. Sonra məktəblərdə şagirdlər tərəfindən kütləvi şəkildə sistem üzərindən yalancı siqnallar verilməyə başladı. Bu səbəbdən də siqnallar söndürüldü".




*"Hazırda dövlət ümumi təhsil müəssisələrində mühafizə xidməti demək olar ki, yoxdur*

Onun sözlərinə görə, hazırda dövlət ümumi təhsil müəssisələrində mühafizə xidməti demək olar ki, yoxdur: "Yəni, məktəblərin təhlükəsizliyi təmin olunmur. O ki qaldı132-134 nömrəli təhsil kompleksinə, ölkədə cəmi 2 məktəb Azərbaycanın dövlət standartlarına uyğun olaraq təhsil proqramları ilə yanaşı, beynəlxalq təhsil kurikulumu, İB proqramı əsasında fəaliyyət göstərir. Onlardan biri 132-134 saylı təhsil kompleksi, digəri 6 saylı məktəbdir. 132-134 saylı təhsil kopleksindən beynəlxalq proqramlar üzrə illik təhsil haqqı nəzərdə tutulub və bu məbləğ 10 000 manatdan yuxarıdır.

Yəni, həmin məktəbin geniş maliyyə imkanları mövcuddur. Azərbaycan qanunvericiliyinə görə, istər dövlət, istər özəl istənilən müəssisə mühafizə polisi ilə müqavilə bağlaya bilər və 24 saat polis nəzarətini təmin edə bilər. Burada qeyri-adi heç nə yoxdur. Gələcəkdə ölkəmizdə əgər məktəblər təhsilalanların sayına görə maliyyələşməyə keçərsə, və yaxud publik hüquqi şəxsə çevrilərsə hər təhsil müəssisəsinin özünün büdcəsi imkan verə biləcək ki, bu sistem təşkil olunsun".

Mövzu ilə bağlı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə də müvafiq sorğu ünvanladıq. Amma sözügedən qurumdan sorğumuza cavab ala bilmədik.

✍ **Sevinc**